*© "Metafizika" Journal* *p-ISSN 2616-6879*
*Vol 6, issue 1, serial 21, 2023. pp.44-68* *e-ISSN 2617-751X*

**UOT:** 930.22
**KBT:** 66.49
**MJ №** 153

# Heydər Əliyev ideyalarının postmünaqişə dövrü və miqrasiya idarəçiliyi

**Aqil Əhmədov***

**Abstrakt.** Görkəmli dövlət və siyasi xadimlərin dövlətçilik ənənələrinin qorunması və gələcək nəsillərə ötürülməsinə xidmət edən ideyaları hər zaman aktual səslənir. Azərbaycan Respublikasının quruculuq və milli inkişaf tarixində əvəzsiz yeri olan, xalq tərəfindən ümummilli lider yüksək ünvanına layiq görülən Heydər Əliyevin ideyaları postmünaqişə dövründə sülh və əməkdaşlığa yeni çağırışlar edir. Dövlət müstəqilliyinin bərpasından ötən 30 illik dövr bir daha təsdiq etdi ki, Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsində qazandığı parlaq qələbənin təməlində Heydər Əliyev ideyaları və siyasi məfkurəsi dayanır. Müharibədən ötən iki ildən yuxarı vaxt ərzində Azərbaycan Respublikası regional və beynəlxalq müstəvidə həyata keçirdiyi siyasətini gücləndirmiş, təhlükəsizlik şəraitində sosial-iqtisadi potensialını bir qədər də artırmışdır. Hazırda Azərbaycan dövlətinin davamlı inkişafına öz töhfəsini verən Prezident İlham Əliyevin qalib Ali Baş Komandan kimi respublikanın milli maraqlarının qorunması istiqamətində həyata keçirdiyi siyasət ölkənin tanınması və onunla əməkdaşlıqda maraqlı olan beynəlxalq təşkilat və dövlətlərin diqqətini çəkir. Məhz Heydər Əliyevin dövlətçilik ideyalarına sadiq qalaraq, Azərbaycanı beynəlxalq aləmdə böyük qürur və şərəflə təmsil edən Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin postmünaqişə dövrünü, ümummilli liderin ideya və müdrik siyasətinin intibah dövrü, məntiqi ardıcıllığı hesab etmək olar.

Respublikada həyatın bütün sahələrində olduğu kimi miqrasiya kimi həssas mövzuda əməkdşlıq və inkişafa nail olunması müharibədən ötən qısa vaxt ərzində özünü göstərir və tədqiqata elmi-nəzəri yanaşma tələb edir.

* Tarix üzrə fəlsəfə doktoru, dosent
AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələr tarixi" şöbəsinin aparıcı elmi işçisi; Bakı, Azərbaycan
E-mail: agilahma@gmail.com
https://orcid.org/0000-0002-9212-5147

**Məqaləyə istinad:** Əhmədov, A. [2023] Heydər Əliyev ideyalarının postmünaqişə dövrü və miqrasiya idarəçiliyi. *"Metafizika" jurnalı, 6*(1), səh.44-68.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 29.12.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 19.01.2023*
*Çapa qəbul edilmişdir: 10.03.2023*

Heydər Əliyev ideyaları 1990-cı illərdə Azərbaycanda müşahidə olunan kəskin emiqrasiyanın, xüsusilə intellektual emiqrasiyanın qarşısının alınmasında müstəsna rol oynadı. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə miqrasiya qanunvericiliyinin hüquqi bazası formalaşdı və ardıcıl olaraq yeni sənədlər imzalandı, nəticədə müstəqil dövlətin müstəqil miqrasiya siyasəti yarandı. Ölkənin 1993-cü ildən etibarən, tədricən sosial-iqtisadi blokadadan azad olunmasının və respublikaya beynəlxalq sərmayələrin cəlb edilməsinin, həmçinin sənaye müəssisələrinin yenidən qurulması, fabrik və zavodların işə salınması, yeni iş yerlərinin açılması, təhsil və elmdə proqressiv addımların atılmasının təməlində dayanan Heydər Əliyev ideyaları milli inkişafa səbəb yaratmışdır.

Akademik tədqiqat işində Heydər Əliyev ideyalarının postmünaqişə dövründə həyata keçirilən dövlət proqramları, nəhəng layihələrin əmək miqrasiyasına əhəmiyyətli təsiri, ölkədə miqrasiya idarəçiliyi sahəsində müşahidə olunan müsbət dinamika araşdırılmış, mövzunun aktuallığı diqqətə çatdırılaraq, istifadə olunmuş faktoloji materiallar təhlil olunmuş və alınan elmi nəticə maddələr halında sadalanmışdır.

**Açar sözlər:** Açar sözlər:ideya, dövlət, siyasət, təhlükəsizlik, miqrasiya, əməkdaşlıq, dialoq

## 1.Giriş

II Qarabağ zəfərindən sonra Azərbaycan Respublikasında yaşanan postmünaqişə dövrü baş verən müsbət dəyişikliklər, ölkəyə yeni investisiyaların təşviqi, işğaldan azad edilmiş torpaqlarda tikinti, quruculuq işlərinin sürətlə davam etdirilməsi, bölgələrdə sosial-iqtisadi layihələrin gerçəkləşməsi bir daha onu göstərir ki, müstəqil Azərbaycan Respublikasının memarı Heydər Əliyevin ideyaları yaşayır, hələ uzun yüzillər xalqın rifah halının yüksəlməsinə və regionda sülh və əmin-amanlığın davamlılığına xidmət edəcək.

Azərbaycanın Cənubi Qafqaz regionunda lider dövlət statusunda çıxış etməsi, davamlı inkişafa, nəhəng sosial-iqtisadi layihələrə başçılıq etməsi, həmçinin bölgədə əmək miqrasiyasının genişlənməsinə müsbət təsir göstərir, yeni istehsal sahələrinin yaranması əməkçi miqrantların diqqətini cəlb edir, dinamizmə səbəb yaradır. Heydər Əliyev ideyalarının davamçısı Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövrü Azərbaycanda milli inkişaf və Vətən müharibəsində qazanılan zəfər ilə vəhdət yaradaraq respublikanın regional və beynəlxalq miqyasda təhlükəsizliyinin təmin olunmasına əsas yaradır. Məhz belə şəraitdə, dövlət başçısı tərəfindən imzalanan 29 sentyabr 2022-ci il tarixli sərəncam ilə 2023-cü ilin Azərbaycan Respublikasında Heydər Əliyev

ilinin elan olunması mövzunun tarixi-siyasi əhəmiyyətinə diqqət çəkir. Ümummilli liderin ideyalarının postmünaqişə dövrü, ölkədə əsaslı inkişafda müsbət rol oynayan miqrasiya idarəçiliyi kimi həssas tematikanın tədqiq olunmasını şərtləndirir, elmi-nəzəri əhəmiyyətini artırır, analitik təhlillər tədqiqatın aktual mövzuya həsr olunduğunu göstərir.

Müasir dünya siyasətində, xüsusilə Qafqazın və keçmiş SSRİ-nin görkəmli dövlət xadimləri arasında ön sıralarda duran Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin tarixi çox əvvəllərə gedib çıxır və 14 iyul 1969-cu ildən başlanır. Azərbaycana rəhbərliyinin sovet dövrü, həmçinin müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin ideyaları, quruculuq və inkişaf strategiyası dövlətin sosial-iqtisadi qüdrətinin yüksəlməsinə, SSRİ məkanında və postsovet dövründə tanınmasına qədər tarixi yol qət etmişdir. Sadalanan zaman kəsiyində Heydər Əliyevin daxildə həyata keçirdiyi siyasət Azərbaycan xalqının rifahının yüksəlməsinə, sərhədlərinin təhlükəsizliyinin təmin olunmasına, istehsal müəssisələrinin artmasına, infrastruktur layihələrin reallaşmasına, bölgələrin dirçəlməsi və mövcud sahədə dövlət proqramlarının icra olunmasına, vətəndaş- insan hüquq və azadlıqlarının qorunmasına əhəmiyyətli təsir göstərmişdir.

Görkəmli dövlət və siyasi xadim kimi şöhrəti Azərbaycanın hüdudlarını aşan Heydər Əliyev pstsovet regionunda, eləcə də Avropa və Qərb dövlətlərində, onların aparıcı media qurumlarında yaxından tanınmış, haqqında yüzlərlə məqalə, kitab, memuarlar qələmə alınmış, sənədli filmlər çəkilmişdir. Mövcud faktlar Heydər Əliyev şəxsiyyətinin Azərbaycanı bütün dünyaya tanıtmaqla, regionda sülh, təhlükəsizlik, dialoq və əməkdaşlığın davamlı olmasına gətirib çıxarmışdır. Görkəmli dövlət xadiminin xarici səfərlərində diqqət çəkən məqamlardan biri, həmin ölkələrdə fəaliyyət göstərən Azərbaycan dispor təşkilatları ilə qurduğu səmimi və səmərəli əlaqələrlə bağlıdır. 1990-cı illərin əvvəllərində Heydər Əliyevin Avropa və Qərb dövlətlərinə işgüzar səfərlərində soyadşlarımızla sıx təmaslar qurması, onların qayğıları ilə maraqlanması və məmləkətə dəvət etməsi, Azərbaycanda nəhəng iqtisadi layihələrin həyata keçirildiyini dilə gətirməsi intellektual emiqrasiyanın ölkəyə geri dönüş mərhələsi kimi qiymətləndirilə bilər. Bu baxımdan, Heydər Əliyevin daxildə olduğu kimi, xarici siyasətdə də miqrasiya kimi həssas mövzuya yer ayırması təbii prosesin öz axarı ilə getdiyindən, insanların hərəkət etmək və sosial həyat şəraitini yaxşılaşdırması yönündə emiqrasiya və yaxud immiqrasiya proseslərində aktiv iştirakının qarşısının alınmasının yolverilməz olduğu aydın nəzərə çarpır.

Tədqiqat boyu qeyd olunan müsbət məqamlar, inkişaf dinamikası respublikada həyati əhəmiyyətli bütün sahələri əhatə etmiş, paralel olaraq miqrasiya siyasətinin inkişafına təsir göstərmiş, qəbul olunan yeni sənədlər, qərar və sərəncamlar ölkə daxilində miqrasiya proseslərinin idarəçiliyni təkmilləşdirmişdir.

Beynəlxalq və qlobal proses olan miqrasiya-emiqrasiya və immiqrasiya kimi mühüm amillər hər zaman Heydər Əliyevin diqqət mərkəzində olmuş, zəruri proses olan miqrasiyanın qarşısının süni şəkildə alınmasının düzgün olmadığı, insanların azad hərəkət etmək hüquqlarının məhdudlaşdırılmasının əhəmiyyətsiz olduğu görkəmli dövlət xadiminin çıxışlarında, çoxsaylı görüşlərində, beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələri ilə keçirdiyi görüşlərdə bəyan olunmuşdur.

Heydər Əliyev çıxışlarında dəfələrlə qeyd etmişdir ki, hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq, milli və mənəvi dəyərlərinə sahib çıxmağı bacarmalıdır. Heydər Əliyev azərbaycanlıların getdikləri ölkələrdə öz dilini qorumağı, mədəniyyətini yaymağı tövsiyə etmişdir [10, s.48]. Dil və mədəniyyət amili bir xalqı yaşadan və tarixin dərinliklərindən keçərək bu günə qədər irəliləməsi, ayaqda qalması üçün mühüm səbəblərdir. Heydər Əliyev haqlı olaraq qeyd edir ki, azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq birinci növbədə Azərbaycanı yaşadır və tanıdırlar. Burada milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə aşılanması kimi vacib məqamlar uzun illərdir respublikadan emiqrasiya etmiş soydaşlarımızın həssas yanaşdığı mövzudur.

Tədqiq olunan mövzu müasir Azərbaycan reallığı fonunda ölkənin dünya birliyinə sürətlə inteqrasiya olunduğunu əks etdirir. Təməlində Heydər Əliyev ideyalarının və şəxsiyyətinin durduğu respublikanın, regional- həm də beynəlxalq müstəvidə reallaşdırdığı lider dövlət, qüdrətli iqtisadiyyat, sülh və təhlükəsizlik, dialoq və əməkdaşlıq yolu elmi-tədqiqat işinin aşağıda göstərilən iki paraqrafda, bir qədər geniş baxış bucağından təhlil olunmasını zəruri edir:

## 2.Heydər Əliyev ideyaları: tərəqqi yolu, regional liderlik və miqrasiya siyasəti

Əlli ildən yuxarı yol qət edən Heydər Əliyev ideyalarının postmünaqişə dövründə Azərbaycan hökuməti tərəfindən daxili və xarici siyasətdə həyata keçirilən davamlı inkişafa, yeni əməkdaşlıq prioritetlərinə nail olunmuş, regionda sülh bərqərar edilmişdir. Qədim dövlətçilik ənənlərini müasir dövrə daşıyan Azərbaycan Respublikası regionda liderliyini qorumaqla postsovet məkanında güclü iqtisadiyyat və orduya malik olduğunu sübut etmişdir. Respublikanın yüksələn iqtisadi qüdrəti, müsbət inkişafa dəstək verən

regionun əmək miqrasiyasının genişlənməsi və idarəçiliyinin möhkəmlənməsinə əhəmiyyətli təsir göstərmiş, ölkə qanunsuz miqrasiya, qaçaqmalçılıq, insan alveri, sərhəd təhlükəsizliyi kimi qlobal və bölgəsəl problemlərin tənzimləndiyi bir dövlətə, sabitlik və tərəqqi adasına çevrilmişdir. Azərbaycanın ötən illər ərzində qazandığı siyasi, iqtisadi və hərbi üstünlüklər Heydər Əliyevin dövlətə rəhbərliyi dövrü, 1960-cı illərin sonundan təməl əsas olmuş, respublika Cənubi Qafqaz regionunda söz sahibi olmuşdu.

1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın sədri vəzifəsinə Heydər Əliyev təyin edildikdən sonra milli düşüncəli ziyalıların yaradıcılıq fəaliyyəti üçün respublikada əlverişli şərait yaranmağa başladı. Millətsevərlik fəaliyyətləri üstündə təqiblər demək olar ki, dayandırıldı. Buna baxmayaraq, respublikada vəziyyət heç də yaxşı deyildi. Hakimiyyət daxilində intriqalar hökm sürür, respublikanın iqtisadiyyatı geri gedirdi. Moskva Azərbaycana yeni bir rəhbərin təyin edilməsi barədə düşünürdü. Bu zaman Azərbaycana Heydər Əliyevdən başqa rəhbərlik edəcək güclü adam yox idi. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə xalqın tarixində keyfiyyətcə yeni mərhələ başladı [16, s.8]. Heydər Əliyev öz yaradıcılığı ilə məhdudlaşmayan, maarifçiliklə məşğul olan, xalqın milli ruhunu, köklərini, mənəvi dəyərlərini əks etdirən əsərlər yaradan mədəniyyət xadimlərini xüsusilə yüksək qiymətləndirirdi [23, s.400]. Azərbaycanda sovet hakimiyyətinin qurulduğu 1920-ci illərdə yaşanan məcburi miqrasiya, ardınca 1930-cu illərin repressiya illəri, II Dünya müharibəsindən sonra SSRİ-nin İrəvandan azərbaycanlıların köçürmə siyasətinin nəticələri son dərəcə ağır olmuşdur. 1920-1960-cı illərin sonlarında Azərbaycandan xeyli sayda ziyalı emiqrasiya etmək məcburiyyətində qalmış, beyin axını, milli düşüncəli insanların ölkəni tərk etməsi durğunluq yaratmış, respublikanı xalqın düşmənləri idarə etmişlər.

Bu səbəbdən, Azərbaycan xalqının xilaskarı Heydər Əliyev dünyada, bilavasitə regionda, eləcə də Azərbaycanda sovet işğal rejiminin davam etdiyi, ziddiyyətlərlə dolu, mürəkkəb bir dövrdə respublika rəhbərliyinə gəlmiş gənc və siyasi xarizması ilə digər rəhbərlərdən seçilən dahi olmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin sovet dövrü respublikanı taleyüklü problemlərdən xilas edərək milli düşüncəli ziyalıların qorunması, istedadlı kadrların vəzifələrə təyin edilməsi ilə ölkənin gələcək inkişafına qapı açmışdır. Görkəmli dövlət xadiminin həmin dövrdə Azərbaycan xalqına göstərdiyi böyük sosial-mənəvi dəstək ölkədən intellekt miqrasiyasının, emiqrasiyanın tədricən zəifləməsinə, qarşısının alınmasına əhəmiyyətli təsir

göstərmiş, Heydər Əliyevin əli ziyalılarımızın rejim tərəfindən təqiblərinin qarşısına sipər çəkmişdir. Nəhayət XX əsrin sonunda SSRİ-nin süqutu və regionda yeni müstəqil dövlətlərin yaranması Azərbaycanın qarşısında geniş üfüqlər açmış, ağır 1990-cı illər xalq-dövlət birliyini sarsıda bilməmiş və müdrik siyasi lider Heydər Əliyev, həyatının əhəmiyyətli dövrünü həsr etdiyi respublikaya yenidən rəhbərliyə qayıtmışdır.

1998-ci ildə Heydər Əliyev altı namizədin iştirak etdiyi növbəti prezident seçkilərində yenidən qalib gəlmişdir [26, s.477]. 1993-cü ildə xalqın dərin etimadını və ehtiramını qazanan Heydər Əliyev beş il sonra yenidən prezidentlik kürsüsünə layiq görülmüş, müdrük ideyaları ilə respublikanı beynəlxalq arenaya çıxarmış, milli inkişafa qapı açmışdır. Hazırda postmünaqişə dövrü adlandırılan şanlı zəfərdən keçən qısa müddət, yaşanan intensiv iqtisadi inkişaf Heydər Əliyevin əsəri, canından çox sevdiyi Azərbaycanın tərəqqi yoludur.

Heydər Əliyev hər görüş və tədbirdən Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması prosesini sürətləndirmək üçün istifadə edirdi. Yalnız 1993-2001-ci illərdə münaqişəni 68 ölkənin prezidentləri və hökumət başçıları ilə 485 dəfə müzakirə etmişdir [25, s.10]. Artıq işğal dövrü tarixdə qalsa da Azərbaycan xalqı ümummilli liderin həmin illərdə münaqişə ilə bağlı gərgin danışıqlarını, regional və beynəlxalq səviyyədə keçirdiyi görüşləri unutmur. Heydər Əliyevin müdrik siyasətinin davamında, Prezident İlham Əliyevin tarixə yazılan dövlət idarəçiliyi və Azərbaycan xalqına qələbə töhfəsi yaxın tarixə yazılan şanlı səhifə olaraq dünya durduqca xatırlanacaq.

Azərbaycanın müstəqil milli inkişafı ilə bağlı Heydər Əliyevin siyasi dünyagörüşü və konseptual yanaşması ilk dəfə hələ SSRİ dağılmamışdan qabaq, 1991-ci ilin əvvəllərində Azərbaycan parlamentinin tribunasından dediyi fikirlərdə öz əksini tapmışdır. Onun həmin dövrdə parlament müzakirələrində səsləndirdiyi təklif və mülahizələr müstəqilliyə doğru uzanan yolda irəli sürülən yeganə rasional, praqmatik və uzaqgörən fəaliyyətin parlaq nümunəsi idi [21, s.4]. Həmin dövr gözlərimizin önündə canlandıqca Heydər Əliyev ideyalarının hazırda dövlət-xalq naminə nə qədər əhəmiyyətli olduğunu anlayırsan. Siyasi iradə və yüksək idarəçilik qabiliyyəti ilə diqqət çəkən Heydər Əliyev ideyaları SSRİ-nin süqutu ilə yeni nəfəs qazanmış, indi postmünaqişə dövründə Azərbaycanın tərəqqi yoluna işıq saçmağa davam edir. Görkəmli dövlət xadiminin qısada olsa həyatının Naxçıvan dövrü xalqın ona olan etimadını bir qədər də artırmış, hələ sovet dönəmində Heydər Əliyev Azərbaycanın Naxçıvan kimi həssas bölgəsinə xüsusi diqqət ayırmışdır.

Əhalinin sayı muxtar respublikada həm də miqrasiyanın mexaniki hərəkəti hesabına dəyişirdi. Bu şəhər əhalisinin artmasında daha çox özünü göstərirdi. Şəhər əhalisi təkcə təbii amillər hesabına deyil, həm də əhalinin miqrasiyası hesabına artırdı. Bu isə istehsalın həcminin və miqrasiyanın böyüməsi ilə birbaşa əlaqədar idi. Naxçıvan MR-də bütün əhalinin 1970-ci ildə 24,5, 1975-ci ildə 25,2, 1980-ci ildə 26,6, 1985-ci ildə 28,3 faizini şəhər əhalisi təşkil etmişdir [17, s.149]. Göründüyü kimi qədim Azərbaycan torpağı Naxçıvanda miqrasiya məsələləri stabil inkişaf etmiş, müxtəlif vaxtlarda fazi göstəriciləri dəyişmiş və tarixi Nəqşicahan vətənin bir parçası kimi öz inkişafını davam etdirmişdir.

Əgər 1990-cı illərin əvvəllərində respublikanın ağır sosial-iqtisadi, siyasi vəziyyəti, Qarabağ muharibəsinin davam etməsi şəraitində miqrasiya prosesləri ölkə vətəndaşlarının xarici olkələrə axını ilə şərtlənirdisə, sonrakı illərdə Heydər Əliyevin həyata kecirdiyi uğurlu islahatların nəticəsi kimi xarici miqrasiya kəskin surətdə azaldı. Belə ki, 1990-cı ildə ölkədən 137,9 min, 1993-cu ildə 285 min, 1995-ci ildə 16 min, 2000-ci ildə 9947 nəfər getmiş, həmin illərdə Azərbaycana müvafiq surətdə 84,3 min, 15,2 min, 62,2 min, 4351 adam qayıtmışdı [1, s.381]. Statistik göstəricilərdən də göründüyü kimi Heydər Əliyevin müstəqil dövlətə rəhbərliyi əsaslı inkişafa gətirib çıxarmış, sosial rifah, insan hüquq və azadlıqlarının qorunması kimi mühüm amillər ölkədən emiqrasiyanı zəiflətmişdir. Dövlət müstəqilliyinin ilk illərində milli inkişafın əsasını qoymuş Heydər Əliyevin siyasi baxışları və mütərəqqi dövlətçilik ideyaları Azərbaycan Respublikasının müstəqil əsaslarda regional əlaqələrinin qurulması və yenidən inkişaf etməsinə əlverişli şərait yaratmış, mehriban qonşuluq siyasəti əsas xət təşkil etmişdir. Azərbaycanın Xəzəryanı və digər dövlətlərlə münasibətləri yenidən şəkillənmişdir. Uzun illər Ermənistan silahlı qüvvələrinin işğal siyasəti ilə üzləşən Azərbaycanda daxili miqrasiyanın yüksəlməsi və mürəkkəb şəraitdə idarə olunması, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və tədricən çadır şəhərciklərinin ləğv olunması məhz Heydər Əliyev ideyalarının müdrük təcəssümü kimi xalqı ağır bəlalardan qorumuş, regionda sülh və əmin-amanalıq bərqərar olunmuşdur.

Demək olar ki, Heydər Əliyevdən əvvəl milli siyasət yox idi. Belə bir siyasət yaradan və tənzimləyən rəsmi qurumlar işləmədiyi üçün bütün yük əvvəlcə etnosun, sonra əhalinin, sonra millətin üzərinə düşmüşdür [20, s.25]. Əvvəllər belə bir ideoloji istiqamətin olmaması, neçə yüzillər Azərbaycan xalqını ağır sınaqlar qarşısında, düşmənlə üz-üzə qoymuşdur. Lakin, müstəqil Azərbycan Respublikasını yaşadan və postmünaqişə dövrünə çatdıran Heydər Əliyev ideyaları, milli inkişaf siyasəti dövlətin tərəqqisinə yol açmışdır.

Hazırda Heydər Əliyev ideyalarının inkişaf mərhələsinin davam etməsi dövlət maraqlarının qorunmasına xidmət edir.

MDB məkanında ilk dəfə Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsinin, Demoqrafik İnkişaf Konsepsiyasının, məşğulluq, əmək miqrasiyası və s. sahələrlə bağlı qanunların, əlilliyin qarşısının alınması və reabilitasiyası üzrə ilk dövlət proqramının qəbul edilməsi, pensiya təminatı sisteminin qabaqcıl beynəlxalq təcrübə əsasında yenidən qurularaq təkmilləşdirilməsi üçün islahatlara başlanması təmin edilmişdir [3, s.3]. Respublikada yeni Əmək Məcəlləsinin qəbul olunması, sosial yönümlü layihələrin işlənib hazırlanması, iqtisadi səmərənin yüksəlməsinə, əmək miqrasiyasının düzgün idarə olunmasına hüquqi baxımdan təkan vermiş, vətəndaş hüquqlarının qorunmasına şərait yaratmışdır. Burada Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasını xüsusilə qeyd etmək lazımdır. Ölkə əhalisinin artımı, siyahıyaalmalar, yeni iş yerlərinin açılması, pensiya təminatının yaxşılaşdırılması, əlilliyi olan şəxslərin reabilitasiyası və sosial müdafiəsinin artırılması dövlət-vətəndaş münasibətlərinə əhəmiyyətli təsir göstərmiş və Heydər Əliyev ideyalarının Azərbaycan xalqını xoşbəxt gələcəyə apardığını təsdiq etmişdir. Ölkədə yaşanan müsbət sosial-iqtisadi islahatlar, beynəlxaql sərmayələr fonunda Azərbaycan Respublikasında əmək miqrasiyasına diqqət artmış və görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsləri ilə mövcud sahədə yeni qanunların qəbul olunması dövrün reallığını əks etdirmişdir.

Ölkəmizdə doğulanların sayı da ölənlərin sayını 2-2,5 dəfə üstələməklə, müsbət miqrasiya saldosu da davam edir. İqtisadi və hərbi cəhətdən olduğu kimi, əhali artımı ilə güclənən ölkəmizdə əhalinin sayının artması müqabilində yeni yaradılan iş yerlərinin sayı da 1 milyonu ötmüşdür [3, s.3]. Əhalinin say tərkibinin yüksəlməsi, miqrasiya sahəsində hüquqi qanunvericiliyin effekt verməsi və icra olunması, yeni iş yerlərinin sayının xeyli dərəcədə yüksəlməsi hazırda Heydər Əliyev ideyalarının düzgün xət tutaraq irəlilədiyini göstərir. Son illər Azərbaycanın hərbi qüdrərinin artırması da bəzi dövlətləri və qüvvələri narahat etməyə başlamış, respublikanın regional müstəvidə tutduğu aparıcı mövqeyə kölgə salmağa cəhd edənlər olmuşdur. Bütün çətinliklərə baxmayaraq təhlükəsiz və sosial təmin olunmuş şəraitdə Azərbaycan xalqı artır, inkişaf edir və düşmənlərinin gözünə dik baxır, dostlarını unutmur. Heydər Əliyev ideyalarını yüksək dəyərləndirən Azərbaycan dövləti bu yolda Prezident İlham Əliyevə arxalanır və Ali Baş Komandanın rəhbərliyi ölkənin nüfuzunu gün keçdikcə daha da artırır, qüdrətini regional səviyyədən beynəlxalq aləmə yönəldir.

Heydər Əliyev əmək bazarının inkişafına, məşğulluq və işsizlik problemlərinin həllinə geniş yer vermiş, bu sahədə görülmüş tədbirlər hesabına iqtisadiyyatın qeyri-dövlət sektorunda məşğulluğun payının 1995-ci ildəki 43,9 faizdən 2002-ci ildə 69,7 faizədək artmasına nail olunmuşdur. Azərbaycanda bu dövrdə qəbul edilmiş Əmək Məcəlləsi, məşğulluq və əmək miqrasiyası haqqında qanunlar, Demoqrafik İnkişaf və Pensiya İslahatı konsepsiyaları, "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" əmək və əhalinin sosial müdafiəsi sahələrində yeni strateji istiqamətlərin əsasını qoymuşdur [2, s.11]. Heydər Əliyevin müstəqil dövlətə rəhbərliyinin ilk illərində, 1995-ci ildə qeyri-neft sektorunun inkişafı, məşğulluğun yüksəldilməsi sahəsində görülən işlər ümummilli liderin yüksək idarəçilik qabiliyyəti və ali siyasi təcrübəsindən irəli gələrək ölkədə yoxsulluq faizinin kəskin azalmasına gətirib çıxarmışdır. Müsbət inkişaf dinamikası respublikada miqrasiya proseslərinin idarə olunması və həmin sahədə dövlət siyasətinin formalaşmasında az əhəmiyyət daşımamışdır. Burada dövlət proqramlarının əhəmiyyətini qabartmaq məqsədəuyğundur. Məhz Heydər Əliyevin ölkəyə rəhbərliyi dövrü nəhəng layihələrin icra oluması, Azərbaycanın enerji siyasətinin genişlənməsi və regionda, bilavasitə MDB məkanında nüfuzunun artması ilə nəticələnmişdir.

1996-cı il martın 13-də "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [6, s.62]. Mövcud qanun əcnəbilərin, miqrantların ölkə ərazisində hərəkəti, dövlət qurumları ilə problemlərinin, hüquqi məsələlərin aradan qaldırılması istiqamətində mühüm əhəmiyyət daşımışdır. Hüquqi qanunvericiliyin təkmilləşdirilməsi və inkişaf etdirilməsi vətəndaş və insan hüquq və azadlıqlarının müdafiəsində əsas baza kimi postmünaqişə dövründə də aktualdır. Respublikada müşahidə olunan müsbət inkişaf tendensiyaları Heydər Əliyev ideyalarının yeni mərhələsində bir qədər də genişlənmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının strukturunda qaçqınların, məcburi köçkünlərin və miqrasiya problemləri üzrə şöbə fəaliyyət göstərir [14, s.1]. Miqrant qədər qaçqın problemi də həssas mövzular sırasına daxildir. Azərbaycan Respublikasında 1993-2003-cü illərdə qəbul olunan dövlət qanunları hər iki sahənin tənzimlənməsi və problemlərin həlli istiqamətində mühüm işlər görüldüyünə əsas yaradaraq, ölkənin vətəndaş hüquqlarının, insan hüquq və azadlıqlarının qorunması sahəsində qəbul etdiyi qərarların mütərəqqi təcrübəyə dayandığını göstərir.

2001-ci ildə Sərhəd Qoşunlarının xidməti hesabatını qəbul edərkən Ulu Öndər qarşıya beynəlxalq terrorçuluğa, qanunsuz miqrasiyaya, narkotiklərin

qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə aparılması, dənizdə neft-qaz hasilatı infrastrukturunun mühafizəsi kimi mühüm vəzifələr qoymuşdu [18, s.1]. Ötən dövr, hazırkı postmünaqişə dövrü qeyd olunan mənfi halların aradan qaldırıldığını və dövlət sərhədlərinin mühafizəsinin yüksək səviyyədə həyata keçirildiyini, enerji resurslarının xalqın rifahı naminə istifadə olunaraq Azərbaycanın regional liderliyinin qorunmasına əlverişli şərait yaratdığını təsdiq edir.

2006-2008-ci illəri əhatə edən “Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı”nda deyilir: “Dövlət Proqramının əsas məqsədi miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, qanunların tətbiqinin effektivliyinin təmin edilməsi, miqrasiya sahəsində vahid məlumat bankının, müasir avtomatlaşdırılmış nəzarət sisteminin, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, miqrantlarla bağlı sosial-müdafiə tədbirlərinin həyata keçirilməsindən ibarətdir” [7, s.51]. Sosial müdafiə tədbirlərinin həyata keçirilməsi Azərbaycanda miqrasiya siyasətinin müsbət yöndə inkişaf etdiyini, müasir dövrün tələblərinə uyğunlaşdırıldığını göstərir. Həmin dövlət proqramı daxildə miqrasiya proseslərinin tənzimlənməsi və gələcək norma və prinsiplərin işlənib hazırlanması sahəsində effektiv olmuşdur.

Keyfiyyət göstəricilərinə görə də ölkə əhalisi dünya standartlarına yaxındır. Əhalinin yaşayış səviyyəsi, təhsili, texniki və peşə hazırlığı, sağlamlıq və yaş meyarları, miqrasiya, urbanizasiya göstəriciləri həm daxili inkişaf, həm də qlobal iqtisadi əlaqələr baxımından mütəxəssislər tərəfindən yetərli hesab olunur [13, s.109]. Həyatın bütün sahələrində əldə olunan müsbət inkişaf, əhalinin yaşayış standartlarının regional səviyyədən dünya standartlarına yaxınlaşdırılması, müxtəlif sahələrlə yanaşı miqrant hüquqlarının qorunması işində pozititiv qərarların qəbul olunması, respublikanın regionda həyata keçirdiyi mühüm layihələr Heydər Əliyev ideyalarının yaşadığını və uzun illər xalqın mənafeyinin təmin olumasına, dövlət maraqlarının qorunmasına əhəmiyyətli təsir göstərməkdə davam edəcəyinə əminlik yaradır.

Heydər Əliyev ideyaları Azərbaycanda daxili təhlükəsizliyin təmin olunması, regional səviyyədə təmsil olunan dövlətlərlə münasibətlərinin inkişaf etdirilməsi, mehriban qonşuluq siyasətinin davamlılığı, sülh və əmin-amanlıq şəraitində əməkdaşlıq, sosial-iqtisadi tərəqqi kimi mühüm əhəmiyyət kəsb edən məsələlərdə uğur düsturu kimi hazırki postmünaqişə dövründə

qarşımıza çıxır. Respublikanın regional liderliyinin möhkəmlənməsi ilə yanaşı, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin ideyaları Azərbaycanın beynəlxalq əlaqələrinin münasibətlər səviyyəsinə yüksəlməsinə, vacib mövzulardan olan miqrasiya sahəsində dövlətlərarası və beynəlxalq təşkilatlarla əməkdaşlığının əhəmiyyətinə diqqət çəkir.

**3.Heydər Əliyev ideyaları: dialoq, beynəlxalq əməkdaşlıq və miqrasiya prosesləri**

Qlobal dünyada baş verən müsbət dinamikada, beynəlxalq münasibətlərin inkişafı və yenilənməsində yaxından iştirak edən inkişaf etmiş dövlətlər, tərəqqi yolunu tutmuş Azərbaycan Respublikası kimi dövlətlər, regionda olduğu kimi beynəlxalq aləmdə də təhlükəsizliyin təmin olunması və əməkdaşlığın genişlənməsində maraqlı olduqlarını bəyan edirlər. Azərbaycanın 70 illik sovet dönəmində məhdud sayda beynəlxalq əlaqələri, əsasən də ittifaqa daxil olan respublikalarla iqtisadi, texniki, elmi, ədəbi əlaqələri müəyyən qədər inkişaf etmişdir demək mümkündür, lakin qənaətbəxş saymaq düzgün olmazdı. Belə mürəkkəb şəraitdə Heydər Əliyevin Azərbaycanda müsbət inkişafın təməlini qoyması, dövrün mərkəzi hakimiyyəti ilə yüksək səviyyəli əlaqələr quraraq xalqın mənafeyinin təmin olunması istiqamətində göstərdiyi xidmətləri yüksək qiymətləndirilir. SSRİ-nin dağılmasından sonra Azərbaycan Respublikası Heydər Əliyev ideyaları ilə mütərəqqi, beynəlxalq proseslərdə yaxından iştirak etməyə başlamış, təhlükəsizliyinin və sosial-iqtisadi inkişafının yüksəlməsi yolunda gələcəyə addımlamışdır. 1990-cı illərin əvvəllərində ölkədə baş verən ictimai-siyasi, hərbi vəziyyət arzu olunan səviyyədə olmasa da, 1993-cü ildən ölkənin daxilində əldə olunan irəliləyiş və uğura aparan beynəlxalq əlaqələr, enerji siyasəti dövlətin milli inkişafının təməlinə çevrilmişdir. Bu baxımdan, Azərbaycan Respublikasının "Əsrin müqaviləsi" kimi tarixə düşən nəhəng enerji layihəsi diqqət çəkir.

Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir:

> *"1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir"* [15, s.8].

Belə də oldu, postmünaqişə dövründə davam edən milli inkişaf və azad olunmuş Azərbaycan ərazilərində həyata keçirilən nəhəng infrastruktur layihələr dövlət-xalq münasibətlərini bir qədər də möhkəmləndirdi. Həyatı Azərbaycanla bağlı olan Heydər Əliyevin ideyaları respublikanın enerji

siyasətindən ötən uzun illər ərzində öz təsdiqini tapmış, “Əsrin müqaviləsi” hazırda xalqın rifah halının yüksəlməsinə xidmət etməkdə davam edir, yeni layihələr işlənib hazırlanır. Ümumilikdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin praqmatik siyasəti ölkədə olduğu kimi regiona sülh gətirmiş, beynəlxalq iqtisadi əməkdaşlıq naminə yaranan perspektivlər əmək miqrasiyası üçün əlverişli şərait yaratmışdır. Heydər Əliyev ideyalarının öz təsdiqini tapdığı sahələrdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlıdır. Respublikaya yeni sərmayələrin cəlb olunması, fabrik və zavodların tikilməsi, yeni istehsal müəssisələrinin yaradılmasına, nəhayət vətəndaş məmnunluğuna, əməkçi miqrantların hüquqlarının qorunmasına, dövlət-xalq birliyinin möhkəmlənməsinə xidmət edir.

Məhz Heydər Əliyev BMT tribunasından müstəqil Azərbaycan adından bütün dünya qarşısında ilk dəfə çıxış etmişdir. Onun dərin, mənalı nitqi bütün beynəlxalq ictimaiyyətə ölkəmiz haqqında həqiqəti çatdırmışdır. O, bir daha təsdiq etmişdir ki, Azərbaycan beynəlxalq əməkdaşlığa, o cümlədən iqtisadiyyat sahəsində beynəlxalq əməkdaşlığa böyük əhəmiyyət verir [24, s.335]. Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın ilk daxil olduğu beynəlxalq qurum İKT *(İƏT)* olsa da BMT-nin ali kürsüsü Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması istiqamətində bir qədər geniş imkanlar açmış oldu. Bununla paralel qeyd etmək lazımdır ki, İKT vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalçı siyasətini birməanlı şəkildə pisləyərək, düşmən ordusunun işğal etdiyi Azərbaycan torpaqlarından dərhal, qeyd və şərtsiz çıxarılmasını tələb edən, yekdil qətnamə qəbul edən ilk və yeganə beynəlxalq qurum kimi tarixdə iz qoymuşdur. Ermənistanın işğalçı siyasətinə qarşı BMT tərəfindən qəbul olunan məlum 4 qətnamənin isə 30 ilə yaxın vaxt ərzində icra olunmamasına baxmayaraq, Heydər Əliyev ideyalarının layiqli davamçısı İlham Əliyevin gərgin və prinsipial siyasi iradəsi 2020-ci ilin noyabr ayında işğala son qoymuşdur. Ardından Azərbaycan nüfuzlu beynəlxalq qurumlarla fəaliyyətini davam etdirmiş, Avropa ilə əlaqələrini kəsməmişdir.

Çox illər əvvəl, 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi”(TƏS) imzalanmışdır [9, s.5]. Aİ ilə münasibətlər respublikanın xarici siyasətində strateji əhəmiyyət daşıyan sahələrdəndir. Burada müxtəlif mövzularla yanaşı immiqrasiya kimi məsələlərə də diqqət ayrılması miqrasiyanın II Dünya müharibəsindən sonra Avropa üçün həyati əhəmiyyət daşıdığını göstərir. Prosesdə Azərbaycanın iştirakı və postmünaqişə kimi qısa

vaxt tərzində Aİ ölkələri ilə miqrasiya sahəsində əməkdaşlıq əlaqələrinin qurulması yeni perspektivlərə yol açmışdır.

Məhz Heydər Əliyevin yürütdüyü müdrük siyasətin nəticəsi olaraq 1997-ci ildə Beynəlxalq Miqrasiya Təşkilatı ilə (BMqT) vətəndaşlıq çərçivəsində "Azərbaycanda miqrasiya idarəetmə potensialının yaradılması" adlı xüsusi proqram həyata keçirilməyə başlandı. 1999-cu ildə isə "Qaçqınların və məcburi köçkünlərin statusu" adlı dövlət qanunu ölkədə fəaliyyət göstərən əməkçi miqrantların hüquqlarının müdafiəsində əhəmiyyətli oldu [11, s.69]. BMqT ilə münasibətlərin qurulması Azərbaycanın əksər beynəlxlaq qurumlarla yanaşı BMT-nın miqrasiya sahəsində ixtisaslaşan və müstəqil təşkilat kimi xeyli üzvü olan qurumla əməkdaşlığını genişləndirmişdir. Postmünaqişə dövründə Azərbaycan-BMqT münasibətləri bir qədər də yüksəlmişdir.

Heydər Əliyev 2000-ci ilin 8 sentyabrında ABŞ-ın tanınmış yəhudi qurumlarının, Yəhudi Komitəsinin, Sovet Yəhudiləri Milli Komitəsinin rəhbər heyəti ilə keçirilən rəsmi görüşdə miqrasiya məsələlərinə toxunmuşdur:

> *"Bilirsiniz, təxminən 1988-1989-cu illərdən başlayaraq Sovetlər İttifaqından Qərb ölkələrinə, Amerikaya, İsrailə yəhudilərin axını güclü olmuşdur. Azərbaycandakı bu proses, eyni zamanda Azərbaycanda gedən ictimai-siyasi proseslər Ermənistan-Azərbaycan müharibəsinə görə və daxildə vəziyyət çox gərgin olduğuna görə daha da çətin olmuşdur. Ancaq 1993-cü ildən biz Azərbaycanda daxili ictimai-siyasi sabitliyi təmin edə bildik və insanların miqrasiyası çox kəskin şəkildə dayandı. Hətta sizə deyə bilərəm ki, vaxtilə Azərbaycandan İsrailə köçmüş insanlar- yəhudilər indi artıq Azərbaycana dönürlər. Son zamanlar Azərbaycana 40 belə ailə dönübdür"* [4, s.18].

Tarixə çevrilmiş həmin illər, bir zamanlar yaşanan işğal siyasəti daxili miqrasiyanın yüksəlməsinə təsir göstərmiş, görkəmli dövlət xadiminin qeyd etdiyi kimi 1993-cü ildən respublikada daxili vəziyyət stabilləşməyə başlamış və insanlar geri dönməyə maraq göstərmişlər.

Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb bütövlükdə türk dünyasını (və ümumən dünyanı!) əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyi ilə yanaşı, praktik perspektivliliyi ilə də böyük tarixi əhəmiyyətə malikdir [22, s.3]. Heydər Əliyev ideyalarının postmünaqişə dövrü Azərbaycanın türk dövlətləri ilə münasibətlərinin yenidən qurulması və qarşılıqlı layihələrin hazırlanması və gələcəkdə icra olunmasına dinamizm qatmışdır. Son bir neçə ay ərzində

Prezident İlham Əliyevin türk dövlətlərinə gerçəkləşən rəsmi səfərləri və Türkiyə kimi Yaxın Şərq regionunun qüdrətli dövlətinin bu birlikdə yaxından iştirak etməsi çox mətləblərdən xəbər verir, Azərbaycanın Mərkəzi Asiya regionu ilə yaxınlaşdırır və əməkdaşlığa əsas yaradır.

Heydər Əliyevin 2000-ci ilin 31 oktyabrında BMqT-nin baş katibi Brunson Mak Kinli ilə görüşü ikitərəfli münasibətlərə öz töhfəsini vermiş, rəsmi görüş zamanı görkəmli dövlət və siyasi xadim demişdir: *“Dünyada gedən indiki proseslər onu göstərir ki, miqrasiya məsələləri dünyanın problemlərindən biri olubdur. Ona görə bəlkə də sizin beynəlxalq təşkilatın işi indi daha da artıb və bu proseslərə təsir etmək imkanları da çoxalıbdır. Mən sizə bu işinizdə uğurlar arzulayıram. Güman edirəm, bizim respublikada keçirdiyiniz müxtəlif görüşlərinizdə bu məsələni konkret müzakirə etmisiniz. Ona görə də indi mənim sizinlə bu barədə geniş söhbət etməyimə ehtiyac yoxdur. Mən sadəcə, inanıram ki, siz dolğun və obyektiv məlumat almısınız. Bu da Azərbaycanın BMqT ilə əməkdaşlığı üçün çox vacibdir və çox yaxşı əsas yaradır”.* [4, s.170]. Proses indiki dünya şəraitində daha həssas dönəmdən keçir, bir problem kimi qeyri-leqal miqrasiya ilə Avropanın mübarizəsi davam edir. Üzərindən xeyli müddət keçmiş, Azərbaycan Respublikası BMqT ilə münasibətlərini əməkdaşlıq səviyyəsinə yüksəldərək ikitərəfli beynəlxalq layihələrdə uğurla təmsil olunmaqda davam edir. Təşkilatın beynəlxalq miqrasiya sahəsində işlərinin çoxaldığını qeyd edən Heydər Əliyev miqrasiya proseslərinə və ölkəsində insan hüquq və azadlıqlarının müdafiəsi kimi məsələlərə əhəmiyyət verildiyinə diqqət çəkmiş, Azərbaycanda miqrasiya siyasətinin yüksək səviyyədə tənzimləndiyini göstərmişdir. Daha sonralar respublikada konstitusiyaya olunan əlavə dəyişikliklər Azərbaycanın beynəlxalq münasibətlərə inteqrasiyasını sürətləndirmiş, miqrant hüquqlarının müdafiəsində əhəmiyyət kəsb etmişdir.

2002-ci il konstitusiya referendumu ilə bağlı dəyişiklik sayəsində konstitusiyaya 39 dəyişiklik və 23 maddə əlavə edildi [19, s.49]. Ölkənin qanunvericilik bazasının, bilavasitə miqrasiya qanunvericiliyinin inkişafında mühüm rol oynayan konstitusiyaya daxil edilən yeni maddələr və dəyişikliklər beynəlxalq əməkdaşlıq münasibətlərinin irəliləməsi və gələcək perspektivlərinin müəyyən olunmasında həlledici rol oynamışdır. Yeni dəyişikliklər Azərbaycana immiqrasiya proseslərinin müsbət tənzimlənməsinə və yarana biləcək hüquqi problemlərin aradan qaldırılmasına yardım etmişdir.

1995-2000-ci illərdə Azərbaycana artan immiqrasiya növbəti illərdə də yüksəlmiş və bu da ölkəyə Heydər Əliyev kimi dühanın rəhbərliyi dövründə

respublikanın iqtisadi qüdrətinin dinamik inkişaf mərhələsi kimi yadda qalmışdır [12, s.241]. Heydər Əliyev ideyaları hər sahədə Azərbaycan dövlətinin möhkəmlənməsinə və dünya birliyi ilə münasibətlərinin inkişafına ciddi təkan vermişdir. Respublikanın artan iqtisadi potensialı, onun qüdrətini dünyanın dördbir tərəfinə yaymış, beynəlxalq aləmdə nüfuzunu artırmış, təhlükəsizliyinin təmin olunmasına əsas yaratmışdır. İllər ötmüş, Heydər Əliyev ideyalarının davamlı inkişafa apardığı Azərbaycanda miqrasiya proseslərini idarə edəcək dövlət qurumu təsis edilmişdir. Bu məsələdə Prezident İlham Əliyevin siyasi erudisiyası və beynəlxalq münasibətlərdə gedən prosesləri dəqiq analiz etmək, Azərbaycan üçün ciddi nəticə çıxarmaq qabiliyyəti, respublikanı mənfi təsirlərdən qorumaq kimi yüksək siyasi təfəkkürü mühüm rol oynamışdır.

Dövlət başçısının imzaladığı sərəncamla 2007-ci ildə Dövlət Miqrasiya Xidmətinin (DMX) təsis edilməsi Azərbaycan Respublikasının miqrasiya siyasətinin genişlənməsinə və region dövlətləri tərəfindən müsbət təcrübə kimi dəyərləndirilməsinə səbəb yaratmışdır [8, s.47]. Hazırda bir sıra qabaqcıl dövlətlərdə miqrasiya xidməti kimi bir qurumun olmadığı bir vaxtda Azərbaycanın DMX-ni təsis etməsi Respublika Prezidentinin uzaqgörən siyasəti və Heydər Əliyev ideyalarının parlaq təcəssümü kimi ölkənin beynəlxalq uğurlarına əlverişli yol açır. Görkəmli dövlət və hökumət xadiminin ideyaları Azərbaycanı təhlükəsiz şəraitdə gələcək beynəlxalq miqrasiya əməkdaşlığına aparır. Bu baxımdan, türk dövlətləri ilə mövcud sahədə münasibətlərin qurulması da diqqət çəkir.

2020-ci ilin 11 mart tarixində "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır [5, s.314]. Son bir il ərzində Azərbaycan Respublikasının türk dünyası ilə qurduğu sıx əlaqələr və xlaqlararsı münasibətlərin səmimi məcraya yönəlməsi diplomatik münasibətlərdə, xüsusilə miqrasiya proseslərinin idarəçiliyi kimi həssas məsələlərdə də özünü göstərir.

Azərbaycanın ötən otuz il ərzində regional və beynəlxalq müstəvidə qazandığı mütərəqqi təcrübə qədim dövlətçilik ənənələrinə və ümummilli lider Heydər Əliyevin müdrik ideyalarına əsaslanaraq tərəqqi yoluna davam edir. Azərbaycan torpaqlarının işğaldan azad olunmasından keçən vaxt bir daha onu göstərdi ki, respublika düz yoldadır və tərəqqiyə doğru irəliləyir. Dövlətin haqlı mübarizəsi beynəlxalq hüququn norma və prinsipləri ilə üst-üstə düşür. Postmünaqişə dövrü, quruculuq proseslərinin, tikinti, iaşə infrastruktur layihələrinin gerçəkləşməsi, ölkə daxilində miqrasiya proseslərinin hüquqi tənzimlənməsi və bir sıra uğurlu addımlar Heydər

Əliyev ideyalarını yaşadır, respublikanın milli maraqlarının, xalqın mənafeyinin qorunmasına xidmət edir.

**4.Nəticə**

Azərbaycan Respublikasının dövlət müstəqilliyindən ötən 31 il, 44 günlük Vətən müharibəsindən keçən dövr ölkənin hərbi potensialını yüksəltmiş, iqtisadi qüdrətini artıraraq müasir beynəlxalq münasibətlərə inteqrasiyasını sürətləndirmişdir. Azərbaycanın uğurlu inkişaf və tərəqqi siyasətindən, müasir miqrasiya idarəçiliyi modelindən çıxış edərək qeyd edə bilərik ki, aparılan tədqiqatın nəticəsində respublikanın postmünaqişə dövründə regional siyasət potensialı yüksəlmiş, ordu qruculuğu müasir dünya standartlarına uyğunlşadırılmış və regionda sülh, əmin-amanlıq təmin olunmuşdur. Bu baxımdan, Azərbaycanın artan templə irəliləməsi, regional liderliyinin qorunmasında mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, respublikanın regional əməkdaşlığının aparıcı aktora çevrilməsi və nəhəng enerji, infrastruktur layihələrin həyata keçirilməsinin təməlində Heydər Əliyevin parlaq ideyaları, milli inkişaf siyasəti unudulmur, xalq tərəfindən daim xatırlanır, əziz tutulur.

Azərbaycan Respublikasının Cənubi Qafqaz regionunda çıxış etdiyi liderlik missiyası, inkişaf prinsipləri sülh və təhlükəsiz şəraitdə, mehriban qonşuluq, dialoq və əməkdaşlıq ortamında davam edir. Dövlətin Vətən müharibəsindən sonra yaratdığı mövcud reallıq region xalqlarının tərəqqisinə müsbət təsir göstərməklə, əməkdaşlıq üçün yeni yollar açır. Bu səbəbdən, müsbət inkişaf dinamikası bölgədə əmək miqrasiyasının genişlənməsini zəruri edir, miqrant hüquq və azadlıqlarının qorunmasının vacibliyini göstərir. Azərbaycanın daxildə miqrasiya siyasətini inkişaf etdirməsi və hüquqi qanunvericilik ilə yüksək şəkildə idarə etməsi beynəlxalq əməkdaşlıq əlaqələrinin intensivliyinə dinamizm qatır, yeni çağırışlar edir. İllər ərzində qazanılan uğurlu inkişaf modeli Azərbaycanın beynəlxalq əlaqələrini artırır, regionda olduğu kimi dünya birliyi dövlətləri, beynəlxalq təşkilatlarda nüfuzunu yüksəldir. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi Heydər Əliyev ideyalarını yaşadır, xalqın rifah halının yüksəlməsinə və beynəlxalq əməkdaşlığının inkişafına xidmət edir. Məqalə boyu sadalanan bütün müsbət fikirləri cəmləşdirərərək alınan elmi nəticəni və elmi yeniliyi aşağıdakı kimi maddələr halında sıralamaq olar:

-Azərbaycan Respublikasının tarixi torpaqlarında bərqərar olunan şanlı Zəfər regionda əməkdaşlıq və dialoq üçün yeni üfüqlər açır;

-Postmünaqişə dövrü Azərbaycanın regional liderliyini gücləndirmiş, respublikanın iştirakı olmadan bölgədə hər hansı bir beynəlxalq layihənin gerçəkləşməsi mümkün deyil;

-İşğaldan azad olunan torpaqlarda beynəlxalq səviyyədə tanınan şirkətlərin təmsil olunması onu göstərir ki, Azərbaycanla münasibətlərini genişləndirmək və yüksək səviyyədə saxlamaq istəyən dövlətlərin sayı az deyil;

-Belə dövlətlərdən biri Türkiyə Respublikasıdır. Türkiyənin Vətən müharibəsində Azərbaycan xalqına və onun dövlətinə göstərdiyi mənəvi-siyasi dəstək bu gün də davam edir, postmünaqişə dövrünün quruculuq və tikinti işlərində qardaş ölkənin aparıcı şirkətləri də yaxından iştirak edirlər;

-1993-2003-cü illərdə Azərbaycanda milli inkişafı dəstəkləyən dövlət proqramlarının, hüquqi qanunverici bazanın formalaşması postmünaqişə dövründə ciddi əhəmiyyət daşıyır və Heydər Əliyev ideyalarının ölkədə əsaslı inkişafa səbəb yaratdığını təsdiq edir;

-Müdrük və tərəqqipərvər ideyaları yaşadan və Azərbaycan Respublikasının beynəlxalq aləmdə şöhrətlənməsinə, regionda lider dövlət olaraq qalmasına öz siyasi iradəsini və intellektini səfərbər etmiş İlham Əliyevin davamlı inkişaf siyasəti postmünaqişə dövründə sülh və əməkdaşlığa çağırışlar edir;

-Azərbaycan Respublikasnın miqrasiya idarəçiliyi kimi həssas məsələdə qazandığı müsbət təcrübə hazırda region dövlətlərinin diqqətini çəkir və öyrənilməsinə maraq artmaqdadır;

-Azərbaycanın enerji siyasətinin tərəqqisi ilə paralel qeyri-neft sektorunun inkişafı sahəsində görülən işlər, qəbul olunan qərar və sərəncamlar, dövlət proqramları ölkədə müsbət dinamikanın müşahidə olunduğunu göstərir;

-Miqrasiya sahəsində qurulan dövlətlərarası münasibətlər və beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişlənməsi, Azərbaycanın regionda və dünya birliyində yüksələn nüfuzundan xəbər verir;

-Heydər Əliyev ideyaları Azərbaycanın beynəlxalq təhlükəsizliyinin davamlı olması ilə paralel respublikada insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğunu əks etdirir;

-Postmünaqişə dövründə Heydər Əliyev ideyalarının davam etdiyi milli inkişafın sürətlənməsi qısa müddət ərzində əhəmiyyətli uğurlara imza atmış və gələcək regional, həmçinin beynəlxalq əməkdaşlığa, siyasi dialoqa əsas yaradır.

Elmi-tədqiqat işində sadalanan müsbət məqamlar Azərbaycan Respublikasının XXI əsrin inkişaf etməkdə olan dövlətləri arasında ön sıralarda durduğunu göstərir. Prezident İlham Əliyevin yürütdüyü inkişaf və tərəqqi siyasəti regionda və beynəlxalq aləmdə sülh, əmin-amanlıq mühitində əməkdaşlığa səbəb yaradır. Azərbaycanın ötən illər ərzində, xüsusilə də

postmünaqişə dövründə qazandığı hər bir uğurunun arxasında heç şübhəsiz ki, Heydər Əliyev ideyaları durur, dövləti və xalqı xoşbəxt gələcəyə aparır.

## ƏDƏBİYYAT

**1.** (2016). *Azərbaycan Respublikasının tarixi: 1991-2003: I cild: Heydər Əliyev dövrü* (elmi redaktor: Mahmudov, Y. M.) Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 704 s.
**2.** Budaqov, T.Y. (2017). Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının banisidir. *“Yeni Azərbaycan” qəzeti, № 80,* 6 may, s.11.
**3.** Babayev, S.R. (2019). Ulu öndər Heydər Əliyev Azərbaycanın vətəndaş rifahına təminat verən sosial dövlət modelinin müəllifidir. “Respublika” qəzeti, № 101, 9 may, s.3.
**4.** Əliyev, H.Ə. (2010). *Müstəqilliyimiz əbədidir (sentyabr-noyabr 2000),* (c. 30) 46 cilddə. Bakı: Azərnəşr, 512 s.
**5.** Əliyev, İ.H. (2021). *İnkişaf məqsədimizdir (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər).* 119 kitabda, 101-ci kitab, Fevral-Mart 2020. Bakı: Azərnəşr, 392 s.
**6.** Əhmədov, A.P. (2016). *Azərbaycan Respublikasında miqrasiya siyasəti və Heydər Əliyev*. “Heydər Əliyev İdeyaları müasir Azərbaycanın uğurlu inkişaf siyasətinin təməlidir” mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. Bakı: Aspoliqraf, s.58-69.
**7.** Əhmədov, A.P. (2017). *Cənubi Qafqazda miqrasiya siyasətinin Azərbaycan modeli və İlham Əliyev*. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev irsi və Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi islahatları” mövzusunda doktorant və dissertantların elmi konfransı. Bakı: Aspoliqraf, 4 may, s.47-58.
**8.** Əhmədov, A.P. (2018). *Dövlət müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasında miqrasiya siyasəti və Heydər Əliyev*. “Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarıdır”. Respublika elmi konfransının materialları, 04 may. Sumqayıt: SDU, s.45-47.
**9.** Əhmədov, E.İ. (2019). *Qurtuluşdan yeni xarici siyasətə*. “Xalq” qəzeti, № 126, 12 iyun, s.5.
**10.** Əhmədov, A.P. (2019). *Heydər Əliyevin dil siyasətində miqrasiya prosesləri və çoxkonfessiyalı mədəniyyət*. 21 fevral – Beynəlxalq ana dili günü münasibətilə “Dilimiz – milli-mənəvi sərvətimizdir” mövzusunda konfrans materialları. Bakı: Nurlar, s.42-53.
**11.** Əhmədov, A.P. (2019). *Heydər Əliyevin quruculuq siyasətində əmək miqrasiyası və davamlı inkişaf*. Gənc tarixçi tədqiqatçıların “Elm günü”nə

həsr olunmuş respublika konfransının materialları. Bakı: Turxan NPB, s. 68-69.
**12.** Əhmədov, A.P. (2020). Heydər Əliyevin milli inkişaf siyasətində miqrasiya prosesləri. *"Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı, 2*(70), 2020, s.239-248.
**13.** Həsənov, Ə.M. (2016). Müstəqilliyimizin memarı. *"Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı, 1*(53), s.109-116.
**14.** Həsənov, Ə.Ş. (2017). *Heydər Əliyev ideyaları Azərbaycanın inkişaf strategiyasının əsasıdır*. "Azərbaycan" qəzeti, № 94, 4 may, s.1,3.
**15.** Xəlilov, Q.R. (2009). *Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ekoloji təhlükəsizliyinin beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik problemləri*. Bakı: Elm və Təhsil, 392 s.
**16.** Qasımlı, M.C. (2006). *Heydər Əliyev – istiqlala gedən yol: 1969-1987-ci illər*. Bakı: Bakı Universiteti Nəşriyyatı, 608 s.
**17.** Qasımov, Ə.Q. (2009). *Heydər Əliyevin tərəqqi strategiyası və Naxçıvan Muxtar Respublikası: XX əsrin 70-80-ci illəri*. Bakı, 412 s.
**18.** Musayev, H. (2017). *Müstəqil Azərbaycanın sərhəd mühafizəsinin təşkili, yaradılması və inkişafı ulu öndər Heydər Əliyevin adi ilə bağlıdır*. "Respublika" qəzeti, № 177, 16 avqust, s. 1-2.
**19.** Majumdar, A. (2022). *Heydar Aliyev: National leader Azerbaijan*. 2ND International Congress of Azerbaijan′s Architect Heydar Aliyev In The 99TH Anniversary Of His Birth. May 10. Baku – Azerbaijan. Proceedings book, 45-52 pp.
**20.** Orucov, H. (2010). *Haydar Aliyev ve Azerbaycan'da Millî Siyaset*. İstanbul: Da Yayınçılık, 208 s.
**21.** Süleymanov, M.S. (2018). *Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi*. Bakı: Elm və təhsil, 728 s.
**22.** (2011).*Türk dünyasının birliyi ideyası və Heydər Əliyev (Araşdırma)*. tərtibçi redaktor: Qoşalı, Ə. Bakı: Elm və təhsil, 168 s.
**23.** Ахундова, Э.Г. (2017). *Гейдар Алиев: личность и эпоха: Т. 3: возвращение (1990-2003)*. Москва: «Канон+» РООИ «Реабилитация», 2017, 624 с.
**24.** Гусейнова, И.М. (2005). *Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру*. Баку: Тахсил, 504 с.
**25.** Гурбанова, С.А. (2010). *Гейдар Алиев и внешнеполитический курс Азербайджанской Республики.* Баку: Şərq-Qərb, 72 с.
**26.** Зенькович, Н. (2007). *Гейдар Алиев. Зигзаги судьбы*. Москва: Яуза, 608 с.

*"Metafizika" Journal*
***2023, vol 6, issue 1, serial 21, pp.44-68***

# Постконфликтный период идей Гейдара Алиева и управление миграцией

**Агиль Ахмедов**[*]

**Абстракт.** Идеи видных государственных и политических деятелей, служившие сохранению и передаче традиций государственности будущим поколениям имеют актуальность во всех периодах. Идеи Гейдара Алиева, занявшего неоценимое место в истории строительства и национального развития Азербайджанской Республики, удостоенного народом высокого звания Общенационального Лидера, в постконфликтный период выдвигают новые призывы к миру и сотрудничеству. 30-летний период, прошедший после восстановления государственной независимости, еще раз подтвердил, что основу блестящей победы Азербайджанской Армии в 44-дневной Отечественной войне составляли идеи и политическая идеология Гейдара Алиева. За более чем два года, прошедших после войны, Азербайджанская Республика усилила политику на региональном и международном уровнях, в условиях безопасности и несколько повысила свой социально-экономический потенциал. Политика, проводимая Президентом Ильхамом Алиевым, который в настоящее время вносит свой вклад в устойчивое развитие азербайджанского государства, направленная на защиту национальных интересов Республики как победоносного Верховного Главнокомандующего, привлекает внимание международных организаций и государств, заинтересованных в признании страны и сотрудничестве с ней. Именно постконфликтный период руководства страной Президентом Ильхамом Алиевым, который, придерживаясь идей государственности Гейдара Алиева, с большой гордостью и честью представляет Азербайджан на международной арене, можно считать эпохой возрождения, логической последовательности идей и продолжением мудрой политики общенационального лидера.

---

[*] Доктор философии по истории, доцент
Ведущий научный сотрудник отдела «История международных связей Азербайджана» Института Истории им. А.А. Бакыханова НАНА; Баку, Азербайджан
E-mail: agilahma@gmail.com
https://orcid.org/0000-0002-9212-5147

**Цитировать статью:** Ахмедов, А. [2023]. Постконфликтный период идей Гейдара Алиева и управление миграцией. *Журнал «Metafizika»*, *6*(1), с.44-68.

***История статьи:***
*Статья поступила в редакцию: 29.12.2022*
*Отправлена на доработку: 19.01.2023*
*Принята для печати: 10.03.2023*

Достижение сотрудничества и развития по такой деликатной теме, как миграция, как и во всех сферах жизни в республике, проявляется в короткий промежуток времени после войны и требует научно-теоретического подхода к ее исследованию. Идеи Гейдара Алиева сыграли исключительную роль в предотвращении острой эмиграции, особенно интеллектуальной, наблюдавшейся в Азербайджане в 1990-е годы. В период правления Гейдара Алиева в республике сформировалась правовая база миграционного законодательства, и последовательно подписывались новые документы, в результате чего возникла самостоятельная миграционная политика независимого государства. Идеи Гейдара Алиева, которые с 1993-го года составили основу постепенного освобождения страны от социально-экономической блокады и привлечения в республику международных инвестиций, а также способствовали реконструкции промышленных предприятий, запуска фабрик и заводов, создания новых рабочих мест, прогрессивных шагов в образовании, науке, способстовали порождению национального развития.

В статье были изучены государственные программы, реализованные в постконфликтный период идей Гейдара Алиева, значительное влияние гигантских проектов на трудовую миграцию, положительная динамика, наблюдаемая в области управления миграцией в стране. До внимания читателей доведены актуальность темы, использованные фактологические материалы и перечень научных результатов.

**Ключевые слова**: идея, государство, политика, безопасность, миграция, сотрудничество, диалог.

## Post-conflict period of Heydar Aliyev's ideas and migration management

**Agil Ahmadov***

**Abstract.** The ideas of prominent statesmen and politicians who served to preserve and transmit the traditions of statehood to future

* Doctor of Philosophy in History, Associate Professor
Leading researcher of the department "History of international relations of Azerbaijan" of the A.A. Bakykhanov Institute of History of ANAS; Baku Azerbaijan
E-mail: agilahma@gmail.com
https://orcid.org/0000-0002-9212-5147

**To cite this article:** Akhmedov, A. [2023]. The post-conflict period of Heydar Aliyev's ideas and migration management. *"Metafizika" journal, 6*(1), pp.44-68.

***Article history:***
*Received: 29.12.2022*
*Accepted: 10.03.2023*

generations are always relevant. The ideas of Heydar Aliyev, who occupied an invaluable place in the history of the construction and national development of the Republic of Azerbaijan, who was awarded the high title of national leader by the people, put forward new calls for peace and cooperation in the post-conflict period. The 30-year period that has passed since the restoration of state independence has once again confirmed that the brilliant victory of the Azerbaijani Army in the 44-day Patriotic War is based on the ideas and political ideology of Heydar Aliyev. In the more than two years that have passed since the war, the Republic of Azerbaijan has strengthened its policy at the regional and international levels, and has somewhat increased its socio-economic potential in security conditions. The policy pursued by President Ilham Aliyev, who is currently contributing to the sustainable development of the Azerbaijani state, aimed at protecting the national interests of the Republic as the victorious Supreme Commander, attracts the attention of international organizations and states interested in recognizing the country and cooperating with it. It is the post-conflict period of the country's leadership by President Ilham Aliyev, who, adhering to the ideas of the statehood of Heydar Aliyev, with great pride and honor represents Azerbaijan in the international arena, can be considered an era of revival, logical sequence of ideas and wise policy of the national leader.

The achievement of cooperation and development on such a delicate topic as migration, as in all spheres of life in the republic, manifests itself in a short period of time after the war and requires a scientific and theoretical approach to research. The ideas of Heydar Aliyev played an exceptional role in preventing acute emigration, especially intellectual, observed in Azerbaijan in the 1990s. During the reign of Heydar Aliyev, the legal framework of migration legislation was formed in the republic and new documents were consistently signed, as a result of which an independent migration policy of the independent state emerged. The ideas of Heydar Aliyev, which since 1993 formed the basis for the gradual liberation of the country from the socio-economic blockade and attracting international investments to the republic, as well as the reconstruction of industrial enterprises, the launch of factories and plants, the creation of new jobs, progressive steps in education and science, gave rise to national development.

In the academic research work, the state programs implemented in the post-conflict period of Heydar Aliyev's ideas, the significant impact of giant projects on labor migration, the positive dynamics observed in the field of migration management in the country were studied, the relevance of the topic

was brought to attention, the factual materials used were analyzed and the scientific results obtained were listed.

**Keywords:** idea, state, politics, security, migration, cooperation, dialogue

## REFERENCES

**1.** (2016). *History of the Republic of Azerbaijan: 1991-2003: Volume I: Heydar Aliyev Period.* scientific editor: Makhmudov, Y.M. Baku: Union of Social Historians of Azerbaijan, 704 p. (in Azerbaijani).

**2.** Budagov, T.Y. (2017). *Heydar Aliyev is the founder of the Strategy of socio-economic development of Azerbaijan*. Newspaper “Azerbaijan”, № 80, May 6, p.11. (in Azerbaijani)

**3.** Babaev, S.R. (2019). *Great leader Heydar Aliyev is the author of a model of a social state that ensures the welfare of Azerbaijani citizens*. newspaper “Republic”, No. 101, May 9, p.3. (in Azerbaijani).

**4.** Aliyev, H.A. (2010). *Independence is eternal (September-November 2000),* (vol. 30). 46 volumes. Baku: Azarnashr, 512 p. (in Azerbaijani).

**5.** Aliyev, I.H. (2021). *Our goal (speeches, statements, interviews, letters, reports, appeals)*. 119 books, book 112, May-June 2021. Baku: Azarnashr, 392 p. (in Azerbaijani).

**6.** Ahmadov, A.P. (2016). *Migration policy in the Republic of Azerbaijan and Heydar Aliyev*. Materials of the scientific and practical conference of doctoral students and dissertants on the topic “Ideas of Heydar Aliyev the basis of a successful policy of development of modern Azerbaijan”. Baku: Aspoligraph, p. 58-69. (in Azerbaijani).

**7.** Ahmadov, A.P. (2017). *Azerbaijan's model of migration policy in South Caucasus and İlham Aliyev*. A scientific conference of doctoral students and dissertants on the topic “National leader Heydar Aliyev and innovative reforms of public administration in the Republic of Azerbaijan” dedicated to the 94th anniversary of the birth of national leader Heydar Aliyev. Baku: Aspoligraph, May 4, p.47-58 (in Azerbaijani).

**8.** Ahmadov, A.P. (2018). *Migration policy in the Republic of Azerbaijan in the first years of state independence and Heydar Aliyev*. “Heydar Aliyev is the architect of the Azerbaijani statehood”. Materials of the Republican scientific conference, May 04. Sumgait: SSU, pp.45-47. (in Azerbaijani).

**9.** Akhmedov, E.I. (2019). *From liberation to a new foreign policy*. newspaper “Khalg”, № 126, June 12, p.5. (in Azerbaijani).

**10.** Ahmadov, A.P. (2019). *Migration processes and multi-confessional culture in the language policy of Heydar Aliyev*. Materials of the

conference on the occasion of the International Mother Tongue Day on February 21 on the topic "our language is a national, spiritual wealth". Baku: Nurlar, pp.42-53. (in Azerbaijani).
**11.** Ahmadov, A.P. (2019). *Labor migration and sustainable development in the policy of formation of Heydar Aliyev*. Materials of the republican conference of young researchers and historians dedicated to the "Day of Science". Baku: Turkhan NPB, p.88. (in Azerbaijani).
**12.** Ahmadov, A.P. (2020). Migration processes in the national development policy of Heydar Aliyev. *"Public administration: theory and practice". Scientific and theoretical journal. 2*(70), 2020, pp.239-248. (in Azerbaijani).
**13.** Hasanov, A.M. (2016). *Architect of our independence*. *Journal "Public Administration: theory and practice", 1*(53), pp.109-116. (In Azerbaijani).
**14.** Hasanov, A.Sh. (2017). *Ideas of Heydar Aliyev the basis of the development strategy of Azerbaijan*. newspaper "Azerbaijan", № 94, May 4, pp.1, 3 (in Azerbaijani).
**15.** Khalilov, G.R. (2009). *International legal and domestic legislative problems of environmental safety of the Baku-Tbilisi-Ceyhan oil pipeline named after Heydar Aliyev*. Baku: Science and education, 392 p. (in Azerbaijani).
**16.** Gasimli, M.C. (2006). *Heydar Aliyev the path to independence: 1969-1987*. Baku: Baku University Press, 608 p. (in Azerbaijani).
**17.** Gasimov, A.G. (2009). *The strategy of progress of Heydar Aliyev and the Nakhchivan Autonomous Republic: 70-80-ies of the XX century*. Baku, 412 p. (in Azerbaijani).
**18.** Musaev, G. (2017). *The organization, creation and development of the border guard of independent Azerbaijan are connected with the traditions of the great leader Heydar Aliyev*. newspaper "Republic", No. 177, August 16, pp. 1-2 (in Azerbaijani).
**19.** Majumdar, A. (2022). *Heydar Aliyev: National leader Azerbaijan*. 2nd International Congress of Azerbaijans Architect Heydar Aliyev in the 99th anniversary of his birth. May 10. Baku - Azerbaijan. Proceedings book, pp.45-52 (in English).
**20.** Orucov, H.Kh. (2010). *Heydar Aliyev and national policy in Azerbaijan*. Istanbul: Da Publishing House, 208 p. (in Azerbaijani)
**21.** Suleymanov, M.S. (2018). *The Heydar Aliyev stage of the Institute of the Supreme Command in Azerbaijan*. Baku: Science and Education, 728 p. (in Azerbaijani).

**22.** (2011). *The idea of the unity of the Turkic world and Heydar Aliyev (research)*. Scientific editor: Jafarov, N. Baku: Science and Education, 168 p. (in Azerbaijani).
**23.** Akhundova, E.G. (2017). *Heydar Aliyev: Personality and Epoch: Vol. 3: Return (1990 - 2003)*. Moscow: “Canon+” ROOI “Rehabilitation”, 2017, 624 p. (in Russian).
**24.** Guseynova, I.M. (2005). *Heydar Aliyev-from a political leader to a national leader*. Baku: Education, 504 p. (in Russian).
**25.** Gurbanova, S.A. (2010). *Heydar Aliyev and the foreign policy of the Republic of Azerbaijan*. Baku: East-West, 72 p. (in Russian).
**26.** Zenkovich, N. (2007). *Heydar Aliyev. Zigzags of fate*. Moscow: Yauza, 608 p. (in Russian)
.